AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan-Bolqarıstan əlaqələrinin inkişafında yeni mərhələ açılır

Mayın 13-də Milli Məclisin Sədri Oqtay Əsədov Bolqarıstan Respublikasının xarici işlər naziri Daniel Mitov ilə görüşüb. Görüşdə Azərbaycan-Bolqarıstan əlaqələri müzakirə olunub.

Oqtay Əsədov bildirib ki, Azərbacanın Bolqarıstanla əlaqələri hələ sovetlər birliyi dönəmindən mövcuddur. Hazırda isə ölkələrarası əməkdaşlıq ən yüksək dövrünə qədəm qoyub. Parlamentin Sədri ölkə başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyevin ötən il Bolqarıstana rəsmi səfəri zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında sənədin imzalanması əlaqələrin inkişafında yeni mərhələ açıb.

Ölkələrimiz arasında hüquqi əməkdaşlığın yüksək olduğunu vurğulayan Milli Məclisin Sədri indiyədək ikitərəfli 51 sənədin imzalandığını, 10 sənədin isə imzalanma ərəfəsində olduğunu xatırladıb. Bununla belə, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi hər iki tərəfin potensialından xeyli aşağıdır. Amma Bolqarıstanın "Cənub qaz dəhlizi"nin iştirakçısı olması əminlik yaradır ki, gələcəkdə bu sahədə də mühüm nailiyyətlər əldə olunacaq.



Görüşdə parlamentlərarası əlaqələrin də inkişaf etdiyi vurğulanıb. İki ölkə parlamentində dostluq qruplarının olduğu bildirilib. Bu qrupların beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəklədiyinə də diqqət çəkilib.

Sədr Bolqarıstanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı neytral mövqe tutduğunu qonağın diqqətinə çatdırıb. Eyni zamanda, əmin olduğunu bildirib ki, strateji tərəfdaşlıq barədə sənədin olması bu sahədə də müəyyən irəliləyişlərə yol açacaq.

Bolqarıstan Respublikasının xarici işlər naziri Daniel Mitov da ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu təsdiqləyib. Vurğulayıb ki, strateji tərəfdaşlıq haqqında sazişə əsasən, gələcəkdə bütün sahələr üzrə əməkdaşlığı gücləndirmək mümkündür. Xüsusən də enerji, ticarət, kənd təsərrüfatı, nəqliyyat və s. sahələrdə nailiyyətlər əldə etmək olar.

Görüş qarşılıqlı müzakirə şəraitində davam etdirilib.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***